**Məhkəmə ekspertizası mərkəzinin**
**Elmi Şurasının 13 dekabr 2017-ci il**
**tarixli qərarı ilə təsdiq edilmişdir**

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində məhkəmə ekspertizalarının keçirilməsi və tədqiqatların aparılması xərclərinin müəyyən edilməsi

## Q AY D A L A R I

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində ekspertizaların keçirilməsi və tədqiqatların aparılması xərclərinin hesablanması və ödənilməsi məsələlərini müəyyən edir.

1.2. Ekspertizaların keçirilməsi və tədqiqatların aparılması xərcləri müəyyən edilərkən Azərbaycan Respublikasının Cinayət-Prosessual və Mülki-Prosessual məcəllələr, "Məhkəmə Ekspertizası Mərkəzi haqqında Əsasnamə", habelə bu Qaydalar rəhbər tutulur.

### 2. Ekspertizaların keçirilməsi və tədqiatların aparılması dəyərinin formalaşdırılması istiqamətləri

2.1. Ekspertiza icraatının təyini və aparılması ilə bağlı ekspertizanı təyin edən orqan (şəxs), ekspertizanın aparılmasında iştirak edən və haqqında ekspertiza aparılan şəxslər tərəfindən ekspertiza icraatının uzadılmasına və ya onun mürəkkəbləşdirilməsinə səbəb olan amillər:

2.1.1. daxil olan ekspertiza üzrə bundan əvvəl ekspertizaya göndərilən materialların tam olmaması (tədqiqat obyektlərinin, müqayisəli tədqiqat üçün zəruri olan nümunələrin təqdim olunmaması və ya qismən təqdim olunması, ekspertizanın təyini haqqında qərarın (qərardadın) prosessual qaydalara uygun tərtib olunmaması, ekspert qarşısında qoyulan sualların qeyri-dəqiqliyi, ekspertiza növünün düzgün müəyyən edilməməsi və s.) səbəbindən ekspert tərəfindən vəsatət verilməsi və ya ekspertizanın təyini haqqında qərar (qərardad) icra olunmadan iş materiallarının birbaşa geri qaytarılması;

2.1.2. daxil olan ekspertiza üzrə bundan əvvəl ekspert tərəfindən verilən vəsatətin təmin olunmaması səbəbindən ekspertizanın təyini haqqında qərar (qərardad) icra olunmadan iş materiallarının geri qaytarılması;

2.1.3. tədqiqat obyektinə təyin olunan baxışın baş tutmaması səbəbindən yeni təkrar baxışın təyin olunması.

**2. 2. Ekspertiza icraatının xüsusiyyətləri ilə bagli olan amillər:**

2.2.1. ekspertizanın obyektlərinin və ekspert qarşısında qoyulan sualların sayı və mürəkkəblik dərəcəsi;

2.2.2. ekspertizanın təkrar, komisyon, kompleks təyin olunması və ya kompleks tədqiqatların aparılmasının tələb olunması;

2.2.3.ekspertiza icraatında xüsusi metodikaların (ənənəvi olmayan) istifadə olunması;

2.2.4. tədqiqat obyektinə baxışın və ya tədqiqatın bir hissəsinin Mərkəzdən kənarda keçirilməsi;

2.2.5. ekspertiza icraatının təcili aparılması tələbi.

**2.3. Büdcə vəsaitlərinin sərfiyyatı ilə baglı olan amillər:**

2.3.1.ekspertiza icraatına sərf olunan vaxta və ştat üzrə əmək haqqı məbləğinə əsasən hesablanan məbləğ;

2.3.2. xidmətlər (enerji, dəftərxana ləvazimatları, katriclər), amortizasiya ayırmaları (maşın və avadanlıqlar, inventarlar, proqramlar və qeyri-maddi aktivlər), ezamiyyə üçün nəzərdə tutulan və digər büdcə vəsaitləri.

## 3. Ekspertizaların keçirilməsi və tədqiqatların aparılması dəyərinin müəyyən edilməsi metodları

3.1. Ekspertizalar icra olunmasının mürəkkəblik dərəcələrinə görə dörd kateqoriyaya ayrılır, ekspertizaların keçirilməsi və tədqiqatların aparılması dəyəri (ED) hesablanarkən onlara 1, 1.5, 2, 2.5 mürəkkəblik əmsalları (MƏ) tətbiq olunur:

3.1.2. I kateqoriya - icraat zamanı bu Qaydaların II bölməsinin 2.1.1-2.1.2-ci yarımbəndlərində göstərilən amilləri özündə əks etdirməyən və 2.3-cü bənddə qeyd olunan büdcə vəsaitlərinin çox istfadə olunmasını tələb etməyən ekspertizalardır;

3.1.3. II kateqoriya - icraat zamanı bu Qaydaların II bölməsinin 2.1.1-2.1.2-ci yarımbəndlərində göstərilən amillərin birini özündə əks etdirən və ya 2.3-cü bənddə qeyd olunan büdcə vəsaitlərinin nisbətən çox istifadə olunmasını tələb edən ekspertizalardır;

3.1.4. III kateqoriya - icraat zamanı bu Qaydaların II bölməsinin 2.1.1-2.1.2-ci yarımbəndlərində göstərilən amillərin bir neçəsini özündə əks etdirən və ya 2.3-cü bənddə qeyd olunan büdcə vəsaitlərinin çox istfadə olunmasını tələb edən ekspertizalardır;

3.1.5. IV kateqoriya - icraat zamanı bu Qaydaların II bölməsinin 2.1.1-2.1.2-ci yarımbəndlərində göstərilən amillərin bir neçəsini özündə əks etdirən və 2.3-cü bənddə qeyd olunan büdcə vəsaitlərinin çox istifadə olunmasını tələb edən ekspertizalardır.

3.2. Ekspertizanın qeyd olunan növlərdən hansına aid olması icraçı ekspert tərəfindən müəyyənləşdirilir.

3.3. Ekspertizaların keçirilməsi və tədqiqatların aparılması dəyəri aşağıdakı kimi hesablanır:

3.4.1.Cinayət işləri üzrə:

3.4.2. ekspertizaların keçirilməsi və tədqiqatların aparılması dəyəri ekspertiza icraatına sərf olunan iş günlərinə (İG) mütənasib olaraq əmək haqqı (ƏH) həddində aşağıdakı kimi hesablanır:

***ED= MƏ *ƏH: 20,8*İG***

3.5. Mülki işlər üzrə:

3.5.1. Mülki işlər üzrə ekspertizaların keçirilməsi və tədqqatların aparılması dəyəri hesablanarkən ekspertizanın mürəkkəblik əmsalı (MƏ), ekspertiza icraatına sərf olunan iş günlərinə (İG) mütənasib olaraq əmək haqqı (ƏH), qarşıdakı ildə Mərkəzə daxil olacaq konkret ekspertiza növünün sayının statistik proqnoz məlumatının (NSPM) ekspertizaların ümumi sayının qarşıdakı ilə dair statistik proqnoz məlumatına (ÜSPM) nisbəti və Mərkəzin digər büdcə xərclərinin (BX) ÜSPM-yə nisbəti əsas götürülür.

3.5.2. BX - Mərkəzin əmək haqqından başqa digər istiqamətlər üzrə xərclərin cəminin qarşıdakı il üçün nəzərdə tutulan proqnoz göstəricisidir. Bu göstərici büdcə xərclərinə dair son beş ilin dinamikası nəzərə alınmaqla artma faizlərinin orta qiymətinin cari ilin büdcə xərclərinin üzərinə əlavə edilməsi ilə əldə olunur.

3.5.3. NSPM və ÜSPM - daxil olan ekspertizalar üzrə son beş ilin dinamikası nəzərə alınmaqla artma faizlərinin orta qiymətinin cari ilin sonuna daxil olan ekspertizaların sayının üzərinə əlavə edilməsi ilə əldə olunur.

3.5.4. ED- aşağıdakı yekun düstürla hesablanır:

***ED= MƏ *ƏH: 20,8*İG * (1 + NSPM/ÜSPM )+ BX / ÜSPM***

## 4. Ekspertizaların keçirilməsi və tədqiqatların aparılması dəyərinin ödənilməsi qaydası

4.1. Ekspertizalarının keçirilməsi və tədqiqatların aparılması xərcləri ekspertizanı təyin edən orqan (şəxs) tərəfindən tutularaq aşağıdakı rekvizitlər üzrə dövlət büdcəsinə köçürülür:

Adı: Dövlət Xəzinədarlıq Agentliyi

Kodu: 210005

VÖEN: 1401555071

Müxbir hesab: AZ41NABZ01360100000000003944

SWIFT BİK: CTREAZ22

Məhkəmə Ekspertizası Mərkəzi

VÖEN: 1700326621

Hesab № AZ34CTRE00000000000002088501

Büdcə təsnifatının kodu 142319

Büdcə səviyyəsinin kodu 3